AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
İQTİSADİYYAT İNSTİTUTU

*Əlyazması hüququnda*

**MAHİR HƏMZƏ OĞLU ZEYNALOV**

# XİDMƏT SFERASINDA SAHİBKARLIQ FƏALİYYƏTİNİN TƏNZİMLƏNMƏSİ VƏ İNKİŞAFININ ƏSAS İSTİQAMƏTLƏRİ

**Ixtisas: 5312.01 – Sahə iqtisadiyyatı**

**İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**Bakı – 2014**

Dissertasiya işi AMEA İqtisadiyyat İnstitutunun "Sahibkarlıq və inhisarçılığın tənzimlənməsi problemləri" şöbəsində yerinə yetirilmişdir

**Elmi rəhbərlər:** **i.e.d. prof. İ.H.Alıyev**
**i.f.d., dos. S.H.Rizayeva**

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru
**X.M.Hüseynova**
iqtisad üzrə fəlsəfə doktoru
**A.S.Abdullayeva**

**Aparıcı təşkilat:** **Azərbaycan Texniki Universitetinin "Sənaye iqtisadiyyatı və menecment" kafedrası**

Müdafiə " 28 " 03 2014-cü il saat " "da AMEA İqtisadiyyat İnstitutunun nəzdindəki FD.01.181 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1143, Bakı şəhəri, Hüseyn Cavid prospekti 31, II mərtəbə, Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutu.

Dissertasiya işi ilə Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi kitabxasında tanış olmaq mümkündür.

Avtoreferat " "__________ 2014-cü il tarixində göndərilmişdir.

**FD.01.181 Dissertasiya Şurasının**
**Elmi katibi, iqtisad üzrə fəlsəfə**
**doktoru, dosent** **G.S.Hacıyeva**

## İşin ümumi xarakteristikası

**Mövzunun aktuallığı.** Müstəqillik illərində Azərbaycanda həyata keçirilən səmərəli və uğurlu iqtisadi siyasət nəticəsində ölkədə dayanıqlı və sabit iqtisadi sistem formalaşmış, iqtisadiyyatın bütün sahələrində yüksək nailiyyətlər əldə edilmiş, iqtisadiyyatda özəl sektorun xüsusi çəkisi, sahibkarlığın rolu əhəmiyyətli dərəcədə yüksəlmişdir. Sahibkarlığın inkişafı Azərbaycan dövlətinin iqtisadi siyasətinin başlıca istiqamətlərindən biri olmaqla, ölkədə iqtisadi və sosial problemlərin həllinin, cəmiyyətdə sabitliyin möhkəmləndirilməsinin mühüm amili hesab olunur. Sahibkarlığın inkişafı üçün vacib olan qanunvericilik bazası yaradılmış, sahibkarların hüquq və qanuni mənafelərinin müdafiəsini, sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsinin təkmilləşdirilməsini, sahibkarlıq mühitinin sağlamlaşdırılmasını təmin edən müvafiq normativ hüquqi aktlar qəbul edilmişdir. Ölkəmizdə son onilliklərdə aparılan iqtisadi islahatlar xidmət sferasında da sahibkarlığın formalaşmasına, onun iqtisadiyyatdakı rolunun daha da artmasına, sosial-iqtisadi problemlərin həllində fəal mövqe nümayiş etdirməsinə geniş imkanlar açmışdır.

Son onillikdə Azərbaycanda ÜDM-nin həcmi və onda özəl bölmənin payı əhəmiyyətli həcmdə artmışdır. Əgər 2000-ci ildə ÜDM-nin cəmi 4,7 milyard manat idisə, 2005-ci ildə 12,5 milyard manata, 2012-cu ildə isə 54 milyard manata yüksəlib. Habelə paralel olaraq özəl sektor da inkişaf etmiş və ÜDM-də xüsusi çəkisi çoxalaraq 2012-ci ildə 81,5% təşkil edib. Bunlarla yanaşı, bu gün ölkə iqtisadiyyatı qarşısında duran mühüm vəzifələrdən biri qeyri-neft sektorunun inkişafı, sahibkarlıq fəaliyyətinin genişləndirilməsi, təkmilləşdirilməsi, onun səmərlı tənzimlənməsi və əsas inkişaf istiqamətlərinin müəyyənləşdirilməsidir.

XXI əsr həm də bir informasiya əsri kimi iqtisadiyyatda xidmət sahələrinin sürətli inkişafı ilə yadda qalmaqdadır. Müşahidələr göstərir ki, son onilliklərdə xidmət sektorunun dünya iqtisadiyyatında payı və rolu yüksəlib. Hətta müasir iqtisadiyyatı xidmətlər iqtisadiyyatı, cəmiyyəti isə postsənaye cəmiyyəti adlandırırlar. Məsələn, inkişaf etmiş ölkələrdə Ümumi Daxili Məhsulun 65-75%-ni məhz xidmət sektoru verir. Azərbaycanda xidmət sferasının Ümumi Daxili Məhsuldakı payı 2000-ci ildə 35,8% olduğu halda sonrakı illərdə azalaraq 2005-ci ildə 25,1%, 2012-ci ildə isə 29,5% təşkil edib. Bir sözlə, müasir dünyanın inkişaf etmiş ölkələrilə müqayisədə Azərbaycanda xidmət sferasının ÜDM-dəki payı onlardan xeyli aşağıdır. Bu isə ölkəmizdə xidmət sahələrinin inkişafı istiqamətində mövcud potensialdan tam və səmərəli

istifadənin hələlik təmin edilmədiyini göstərir, habelə xidmət sahələrində sahibkarlığın daha dinamik inkişaf etdirilməsinə diqqətin yönəldilməsi zəruriliyindən xəbər verir. Bunlar tədqiqat mövzusunun seçilməsini şərtləndirən və tədqiqatın aktuallığını əsaslandıran mühüm amillərdir.

İnkişaf etmiş ölkələrin təcrübəsində xidmət sferası məşğulluq probleminin həllində mühüm sektor kimi çıxış edir. Azərbaycanda isə bu sahədə xidmət sferasının müxtəlif istiqamətlərinin zəngin potensialı olduğu halda, ondan səmərəli istifadə olunmur. Bu problemin həllində xidmət sferasında sahibkarlıq fəaliyyətinin rolunun artırılması baxımından müvafiq elmi araşdırmaların aparılması xüsusi əhəmiyyət kəsb edir.

Müşahidələr göstərir ki, xidmət sferasında sahibkarlığın sürətli inkişafının zəruri şərtlərindən biri də səmərəli tənzimləmədir. Başqa sözlə desək, bazar münasibətləri şəraitində tənzimləmə yalnız inzibati xarakter daşımamalı, həm də müəyyən stimullaşdırıcı əlamətlərə malik olmalıdır. İşdə qeyd edilən məsələlərə də xüsusi diqqət yetirilmişdir ki, bu da tədqiqat mövzusunun aktual olduğunu bir daha ifadə edir.

Xidmət sahələrində informasiya bazasının zəifliyi, sahibkarların müasir İKT texnologiyalarından səmərəli istifadə etməməsi, haqsız rəqabət halları, biznes qurmaq üçün maliyyə vəsaitləri əldə etməyin çətinliyi, vergi dərəcələrinin yüksək olması, kadr çatışmazlığı, innovasiya sahibkarlığının inkişaf etməməsi, xidmətlərə tələbin yüksək olmaması, xidmətlərin keyfiyyətinin aşağı, qiymətlərinin isə yüksək olması, rəqabət qabiliyyətinin zəifliyi və s. problemlər var. Bütün bunlar isə Azərbaycanda xidmət sferasında sahibkarlığın səmərəli tənzimlənməsi və inkişafının əsas istiqamətlərinin müəy-yənləşdirilməsinin aktual olduğunu təsdiqləyir.

**Mövzunun öyrənilmə səviyyəsi.** Sahibkarlığın nəzəri, metodoloji və praktiki problemləri həmişə iqtisad elminin diqqət mərkəzində olmuşdur. Habelə iqtisadiyyatın müxtəlif sahələrində sahibkarlıq fəaliyyətinin xüsusiyyətləri tədqiq edilmişdir. Müxtəlif vaxtlarda dünyanın görkəmli iqtisadçı-alimləri bu məsələlərlə bağlı əsərlərində öz münasibətlərini bildirmiş, fikirlərini əsaslandırmağa çalışmış və inkişaf yollarını göstərmişlər. Bu sahədə xarici alimlərdən P.Xizriç, M.Piters, R.Kantilyon, A.Smit, J.Bodo, J.B.Sey, A.Marşal, Y.Şumpeter, C.M. Keyns, P.Druker, F.Xayek, A.Xoskinq, D.Rikardo, P.Samuelson, F.Kotler, MDB alimlərindən M.Q.Lapusta, A.Q.Porşnev, Y.L.Starostin, L.Q.Skamay, A.İ.Aqeev, V.Y.Qorfinkel, V.A.Şvandar, A.Petrajiçskiy, V.Z.Balikoev, T.D.Burmenko, N.N.Danilenko, V.D.Qribov, A.L.Leonov və başqalarının adlarını çəkmək olar.

Azərbaycanda tədqiq edilən mövzunun müxtəlif aspektləri A.A.Nadirov, Z.A.Səmədzadə, A.K.Ələsgərov, Ş.M.Muradov, Ə.X.Nuriyev,İ.H.Alıyev, Ə.Q.Əlirzayev, M.Meybullayev, M.Atakişiyev, S.İ.Səfərov, T.N.Əliyev, R.P.Sultanova, T.N.Hüseynov, G.Z.Yüzbaşiyeva, A.B.Abbasov, Ş.Ə.Axundov, İ.H.İbrahimov, M.R.Musayev, İ.Z.Seyfullayev, S.H.Rizayeva, Ə.H.Həsənov, A.M.Əsədov və başqaları tərəfindən tədqiq edilmişdir.

Bunlarla yanaşı, Azərbaycanda ayrı-ayrı xidmət sahələri bir sıra tətqiqatçı alimlər tərəfindən araşdırılsa da, xidmət sahələrində sahibkarlıq fəaliyyəti və onun əsas inkişaf istiqamətləri kompleks şəkildə tədqiq olunmamışdır. Bu amil ölkəmizdə xidmət sferasında bütövlükdə sahibkarlıq fəaliyyətinin başlıça xüsusiyyətlərinin elmi baxımdan öyrənilməsinin dərinləşdirilməsini, xidmət sahələrinin daha da inkişafı məqsədilə bu sahədəki mövcud problemlərin aşkarlanması və həllini, sahibkarlıq fəaliyyətinin səmərəli tənzimlənməsi və inkişaf istiqamətlərinin müəyyənləşdirilməsini vacib amil kimi ortaya çıxarır. Bütün bunlar tədqiqat mövzusunun seçilməsini şərtləndirmiş və aktuallığını ön plana çıxarmışdır.

**Tədqiqatın məqsədi və vəzifələri.** Tədqiqat işinin məqsədi Azərbaycanda xidmət sferasında sahibkarlıq fəaliyyətinin nəzəri-metodoloji əsaslarını, xüsusiyyətlərini tədqiq etmək, müasir real vəziyyətini təhlil edib qiymətləndirmək əsasında onun təkmilləşdirilməsi istiqamətləri üzrə metodiki və əməli xarakterli tövsiyyələr hazırlamaqdan ibarətdir.

Qarşıya qoyulmuş məqsədə nail olmaq üçün aşağıdakı məsələlər müəyyənləşdirilmiş və məntiqi ardıcıllıqla yerinə yetirilmişdir:

- xarici ölkələrin və respublikamızın alimlərinin mövzuya dair əsərlərinin öyrənilib ümumiləşdirilməsi əsasında xidmət sferasında sahibkarlığın elmi-nəzəri xüsusiyyətlərini tədqiq etmək;
- dünya təcrübəsinə istinadən xidmət sferasının iqtisadiyyatda yeri, rolu və əhəmiyyətini araşdırmaq;
- Azərbaycanda milli sahibkarlığın inkişaf meyillərini müəyyən etmək;
- xidmət sahələrində sahibkarlıq fəaliyyətinin mövcud vəziyyətini qiymətləndirmək;
- dövlət tərəfindən sahibkarlıq fəaliyyətinin dəstəklənməsi və tənzimlənməsi istiqamətlərini müəyyənləşdirmək;
- xidmət sahələrinin inkişafı ilə Ümumi Daxili Məhsulun artımı arasında ekonometrik model qurmaq;
- xidmət sferasında sahibkarlıq fəaliyyətinin sosial-iqtisadi inkişafda rolunun artırılması zəruriliyini əsaslandırmaq;

- xidmət müəssisələrinin rəqabət qabiliyyətinin yüksəldilməsi istiqamətlərini müəyyən etmək;
- xidmət sferasında sahibkarlığın inkişaf etdirilməsinin əsas istiqamətləri üzrə kompleks xarakterli, elmi cəhətdən əsaslandırılmış təklif və tövsiyyələr işləyib hazırlamaq.

**Tədqiqatın obyekti.** Tədqiqat obyekti kimi Azərbaycan Respublikasında xidmət sferasında xüsusi sahibkarlıq fəaliyyəti seçilmişdir.

**Tədqiqatın predmeti.** Tədqiqatın predmetini xidmət sferasında fəaliyyət göstərən sahibkarlıq subyektləri arasında iqtisadi münasibətlərin tənzimlənməsi, inkişafı və təkmilləşdirilməsi məsələləri təşkil edir.

**Tədqiqatın nəzəri və metodoloji əsasları.** Mövzuya aid yerli və xarici iqtisadçı alimlərin nəzəri-təcrübi elmi əsərləri, klassiklərin baxışları, tədqiqatçıların müvafiq elmi araşdırmaları, Azərbaycan Respublikasının qanunları, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları, digər normativ-hüquqi aktlar, dövrü mətbuatın materialları tədqiqat işinin nəzəri-metodoloji əsaslarını təşkil edir. Tədqiqat zamanı müəllif tərəfindən iqtisadi-statistik təhlil, məntiqi ümumiləşdirmə, struktur-funksional, müqayisə və digər metodlardan istifadə edilmişdir.

**Tədqiqat işinin informasiya bazasını** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin, Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin, Sahibkarlığa Kömək Milli Fondunun, dövlət qurumlarının rəsmi məlumatları, beynəlxalq təşkilatların bulletenləri, hesabatları, İnternet materialları, beynəlxalq və respublika miqyaslı elmi-praktiki konfransların materialları, məqalələr, monoqrafiyalar və s. təşkil edir.

**Tədqiqat işinin elmi yeniliyi aşağıdakılardan ibarətdir:**
- Azərbaycanda ilk dəfə xidmət sferasında sahibkarlıq fəaliyyəti kompleks şəkildə tədqiq olunmuşdur;
- müxtəlif nəzəri yanaşmalar əsasında Azərbaycanda müasir sahibkarlıq fəaliyyətinin təşkili və inkişafı istiqamətində müvafiq nəzəri ümumiləşdirmələr aparılmışdır;
- xidmət sferasında sahibkarlıq fəaliyyətinin müasir vəziyyəti təhlil olunmuş və qiymətləndirilmişdir;
- Azərbaycanda xidmət sferasında sahibkarlıq fəaliyyətinin inkişafının stimullaşdırılması və səmərəli tənzimlənməsi istiqamətləri təklif edilmişdir;

- xidmət sahələrinin inkişafı ilə Ümumi Daxili Məhsulun artımı arasında ekonometrik model qurulmuşdur; xidmət sferasına daxil olan sahələrin perspektiv inkişaf istiqamətləri təklif edilmişdir;
- xidmət sferasında rəqabət qabiliyyətliliyə təsir edən amillər müəyyənləşdirilmiş, sahibkarlıq subyektlərinin rəqabət qabiliyyətinin yüksəldilməsi istiqamətləri təklif edilmişdir;
- Azərbaycanın xidmət sferasında sahibkarlıq fəaliyyətinin səmərəli tənzimlənməsi və inkişafının əsas istiqamətləri üzrə elmi cəhətdən əsaslandırılmış təklif və tövsiyyələr işlənib hazırlanmışdır.

**Tədqiqat işinin praktiki əhəmiyyəti.** Dissertasiya işinin əsas müddəaları, işdə aparılmış elmi ümumiləşdirmələr, alınmış nəticələr və irəli sürülən təklif və tövsiyyələr Azərbaycanda xidmət sferasında sahibkarlığın təşkili, tənzimlənməsi və inkişaf etdirilməsi, xidmətlər bazarının müasirləşdirilməsi, təkmilləşdirilməsi və sahibkarlıq müəssisələrinin rəqabət qabiliyyətinin yüksəldilməsi istiqamətində əhəmiyyətli rol oynaya bilər. Habelə tədqiqat işinin əsas elmi müddəalarından sahibkarlıqla bağlı müxtəlif proqramların, layihələrin hazırlanmasında, elmi-tədqiqat işlərində, həmçinin tədris prosesində istifadə oluna bilər.

**Tədqiqatın nəticələrinin aprobasiyası və tətbiqi.** Dissertasiya işinin əsas müddəaları, irəli sürülən əməli təklif və tövsiyyələr 2001-2013-cü illər ərzində respublikada keçirilən yerli və beynəlxalq əhəmiyyətli elmi-praktik konfranslarda müzakirə edilmişdir, habelə elmi jurnallarda, toplularda və kollektiv monoqrafiyalarda, yerli və beynəlxalq konfransların materiallarında çap edilmişdur. Bütövlükdə 18 əsər, o cümlədən, 8 məqalə və 10 tezis (onlardan ikisi xaricdə olmaqla), bir kollektiv monoqrafiya çap olunmuşdur. Tədqiqatın nəticələri, işlənib hazırlanmış təklif və tövsiyyələr Azərbaycan Kooperasiya Universitetinin müvafiq kafedralarına, habelə Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasına (ASK) təqdim edilmiş və hər iki qurumdan istifadəsi haqqında arayış (Kooperasiya Universitetindən №01/254, tarix 02.07.2013; ASK-dan №50, tarix 18.02.2014) alınmışdır.

**İşin quruluşu və həcmi.** Dissertasiya işi giriş, 3 fəsil, 9 yarımfəsil, nəticə və təkliflər, istifadə olunmuş ədəbiyyat siyahısı və əlavələrdən ibarət olmaqla 180 səhifədir. İşdə 4 şəkil, 36 cədvəl verilmişdir.

## Tədqiqat işinin əsas məzmunu

Dissertasiya işinin **girişində** mövzunun aktuallığı və tədqiqat obyektinin seçilməsi əsaslandırılır, tədqiqatın məqsəd və vəzifələri,

obyekti və predmeti müəyyən edilir, işin elmi yeniliyi və praktiki əhəmiyyəti göstərilir.

Dissertasiyanın **“Xidmət sferasında sahibkarlıq fəaliyyətinin nəzəri-metodoloji əsasları»** adlı birinci fəsilində klassik Qərb və müasir Azərbaycan alimlərinin sahibkarlığa elmi-nəzəri baxışları ümumiləşdirilərək sahibkarlığın mahiyyəti, funksiyaları, iqtisadiyyatın inkişafındakı rolu ətraflı göstərilmiş, dünya təcrübəsi əsasında iqtisadiyyatda xidmət sferasının yeri və əhəmiyyəti, xidmət sferasında sahibkarlıq fəaliyyətinin başlıca xüsusiyyətləri tədqiq olunmuşdur.

Müasir sahibkarlığın inkişafında XVIII-XIX əsr iqtisadçi-alimlərinin tədqiqatları, fikirləri mühüm rol oynamışdır. Klassik iqtisadçı alimlərin əsərlərində sahibkarlığın novatorçu, yenilikçi, innovasiya funksiyasından, daha yaxşı nəticələrə nail olmaq üçün yeni imkanların axtarıcısı kimi bəhs olunur. Bunlarla yanaşı, sahibkarlıq mühitində rəqabətin inkişaf etdirilməsi, inhisarçılığın məhdudlaşdırılması, azad sahibkarlıq fəaliyyətinin dövlət tərəfindən iqtisadi rıçaqlar (vergi, rüsum, faizlər və s.) vasitəsilə tənzimlənməsinin zəruriliyi qeyd olunur.

Müstəqilliyin ölkəmizə bəxş etdiyi mühüm özəlliklərdən biri də ondan ibarət oldu ki, Azərbaycan iqtisadçıları ölkənin çoxtərəfli mümkün inkişaf potensialını düzgün qiymətləndirərək, onu öz təyinatına görə milli mənafelərə uyğun məcrada istifadə etmək imkanlarını üzə çıxara bildilər. Bütün bu qısa vaxt kəsiyində alimlərimiz öz dərin tədqiqatlarında Azərbaycan iqtisadiyyatının taleyüklü problemlərini araşdıraraq onların həlli yolları və sahibkarlığın inkişafının zəruriliyi üzrə tövsiyyələr irəli sürdülər.

XX əsrin ikinci yarısı - XXI əsrin əvvəlləri dünya ölkələrinin iqtisadiyyatında bir çox inkişaf meyllərinə görə xarakterizə edilir. Belə əsas meyllərdən biri xidmət sferasının həddən artıq genişlənməsidir. İqtisadçı alimlər xidmət sferasında daha geniş tədqiqatlara XX əsrin ikinci yarısından başlayıblar. Avropa ölkələrində bu, 1960-70-ci illərdə baş verib. Azərbaycanda isə müstəqillik illərində, ölkəmiz bazar iqtisadiyyatına keçid yolunu tutduqdan sonra bu sahəyə diqqət artıb, müasir tələblərə uyğun elmi-tədqiqat işləri aparılır.

Bunlarla yanaşı, elmi ədəbiyyatlarda qeyri-istehsal sferası, qeyri-maddi istehsal, sosial sfera, sosial-mədəni sfera, xidmətlər sektoru və s. anlayışlarla rastlaşmaq mümkündür. Ancaq bununla belə, onların hamısı ümumiləşdirilmiş geniş bir anlayışa – xidmət sferasına aiddir. Bir tərəfdən xidmətlər qeyri-maddi olmaqla həm fiziki, həm də hüquqi şəxslərə təqdim olunur, digər tərəfdən isə xidmətlər maddi xarakter

daşıyır. Bununla yanaşı, xidmətlər adətən qeyri-maddi sayılsa da, həm də maddi istehsal sahələri ilə əlaqəlidir.

ÜDM-də xidmət sferasının payı 50%-dən artıq olan dövlətlər postsənaye ölkələri sayılır. Azərbaycanda xidmət sferasının Ümumi Daxili Məhsuldakı payı 2000-ci ildə 35,8% olduğu halda, sonrakı illərdə azalaraq 2012-ci ildə 29,5% təşkil edib. Bir sözlə, müasir dünyanın inkişaf etmiş ölkələrilə müqayisədə (orta rəqəm 65-70%) Azərbaycanda xidmət sferasının Ümumi Daxili Məhsuldakı payı iki dəfədən də çox aşağıdır. Azərbaycan iqtisadiyyatında maddi istehsal aparıcı sahədir, onun əsas sütunudur. Bununla yanaşı, maddi istehsal sektoru nə qədər effektiv və davamlıdırsa, cəmiyyət və insan da bir o qədər varlı, imkanlıdır, daha yaxşı yaşamaq perspektivlərinə malikdir. Belə şəraitdə isə cəmiyyətin həyatında, iqtisadiyyatda xidmət sferasının rolu və əhəmiyyəti, xüsusi çəkisi də getdikcə yüksəldilməlidir.

Xidmət sferasında rəngarəng təsərrüfat subyektlərinin sayı daim artır, yeniləşir. İnkişaf etmiş bazar iqtisadiyyatı şəraitində xidmət sferasında sahibkarlığın öz xüsusiyyətləri, funksiyaları var. Bu funksiyalara ümumiqtisadi funksiya, sosial funksiya, resurs funksiya, təşkilati funksiyalar, innovasiya funksiyası aid edilir. Xidmət müəssisəsinin uğurunun başlıca faktoru – müştərinin tələbatını ödəmək qabiliyyətidir. Sahibkar konkret müştəriyə yüksək xidmətlər göstərmək, onun müxtəlif problemlərini effektiv həll etmək imkanlarına malikdir. Habelə kiçik biznesin insan resurslarından düzgün istifadə etməsi mühüm əhəmiyyət daşıyır. Bu isə sahibkarın liderlik və idarəçilik keyfiyyətləri ilə birbaşa bağlıdır.

**Tədqiqatın «Xidmət sferasında sahibkarlığın müasir vəziyyətinin təhlili və qiymətləndirilməsi»** adlanan II fəslində xidmət sferasında sahibkarlığın müasir vəziyyəti təhlil edilib qiymətləndirilir. Müstəqillik illərində Azərbaycanda sahibkarlığın inkişafı meylləri, xidmət sferasının müasir vəziyyəti və inkişaf xüsusiyyətləri, xidmət sahələrində sahibkarlıq fəaliyyətinin vəziyyəti ətraflı təhlil olunur və qiymətləndirilir.

Xidmət sferasında sahibkarlığın müxtəlif formaları fəaliyyət göstərir. Bu sahədə sahibkarlığın inkişafına əsaslı zəmin ölkə Prezidentinin 1997-ci ildə «Xidmət» Dövlət Konsernin ləğv olunması və onun müəssislərinin özəlləşdirməyə verilməsi haqqında fərmanından sonra başlayıb. Özəlləşdirilmiş kiçik müəssisə və obyektlərin 94,1 faizi xidmət obyektləridir. 2011-ci il vəziyyətinə, ölkədəki 1500-ə qədər səhmdar cəmiyyətlərinin 34,9%-i və ya 554-ü xidmət sahələrinin payına düşür. Özəlləşdirmə ilə paralel olaraq yeni müəssisələr də yaradıldı ki,

bu da xidmət sahələrində sahibkarlıq subyektlərinin yaranmasına, xüsusi sahibkarlığın formalaşmasına və inkişafına ciddi təkan verdi. Ölkədə bundan sonrakı iqtisadi artım, bötövlükdə qeyri-neft sektorunun inkişafı sahibkarlığın tərəqqisi hesabına mümkündür.

Azərbaycanda xidmət sferasının inkişafını bir sıra xarakterik xüsusiyyətləri ilə xarakterizə etmək mümkündür. İnkişaf etmiş ölkələrin ÜDM-də xidmət sferasının payı 65-75 faiz olduğu halda, Azərbaycanda bu göstərici 27-29%-dir. Bu isə ondan xəbər verir ki, ölkəmizdə ictimai istehsalın strukturu inkişaf etmiş ölkələrin səviyyəsinə uyğun deyil. Bununla belə, 1997-ci ildən başlayaraq Azərbaycanda xidmət sferasında hər il ardıcıl olaraq artım qeydə alınır. Əgər 1995-1996-cı illərdə xidmət sahələrində geriləmə (müvafiq olaraq 13,1% və 4,8%) müşahidə olunmuşdusa, 1997-ci ildə əvvəlki ilə nisbətən 6,4%, 2000-ci ildə 9,6%, 2005-ci ildə 9,4%, 2006-cı ildə 17,1%, 2007-ci ildə 11,6%, 2008-ci ildə 14%, 2009-cu ildə 10%, 2010-cu ildə 7%, 2011-ci ildə 6,5%, 2012-ci ildə 7,6% artım olmuşdur. Bu isə respublikamızda bütövlükdə xidmət sektorunun inkişafından xəbər verir.

Respublikamızda sənaye istehsalı və kənd təsərrüfatı sahələri üstünlük təşkil edir. Hələlik Azərbaycanda xidmət sferasının inkişaf səviyyəsi inkişaf etmiş ölkələrdən geri qalsa da, xidmət sahələrinin, bu sektorda sahibkarlığın müsbət inkişaf meylləri diqqət çəkir. Xüsusən də İKT, ticarət, nəqliyyat, elm, təhsil, səhiyyə, idman və turizm sahələrində inkişaf qeyd oluna bilər. Ümumiyyətlə, Azərbaycanda bütün xidmət növlərinin, bütövlükdə xidmət sferasının inkişafı üçün imkanlar, potensial resurslar mövcuddur. Əsas məsələ bu potensialdan səmərəli istifadə etməkdir.

Azərbaycanda xidmət sferasında sahibkarlığın inkişafı mühüm əhəmiyyət kəsb edir. Çünki ölkə iqtisadiyyatında bir çox sosial-iqtisadi problemlərin həlli, yeni iş yerlərinin yaradılması, əhaliyə yüksək səviyyədə xidmətlərin göstərilməsi, xidmətlərin keyfiyyətinin yüksəldilməsi və rəqabət qabiliyyətinin artırılması, yeniliklərin tətbiqi məhz sahibkarların öhdəsinə düşür. Rəqabət qabiliyyətli milli iqtisadiyyatın formalaşması həm də sahibkarlığın inkişafı ilə bağlı məsələdir.

Son illər Azərbaycanda ÜDM-də iqtisadiyyatın bütün sahələri üzrə qeyri-dövlət bölməsinin payının artımı müşahidə olunur. Əgər 2000-ci ildə ÜDM-də özəl sektorun payı 70,8 faiz idisə, sonrakı on ildə artaraq 2012-ci ildə 81,5 faizə yüksəlmişdir. ÜDM-də xidmət sahələrində də qeyri-dövlət bölməsinin payı artmışdır. Hətta 2012-ci ildə ticarət və xidmət sahələrində özəl sektor 99,7 faiz təşkil edib ki, bu da

iqtisadiyyatın sahələri arasında sahibkarlığın ən yüksək xüsusi çəkiyə malik olduğu sferalardandır. 2000-2012-ci illər ərzində özəl sektorun payı ticarət və xidmətlər sahəsində 98,3%-dən 99,7%-ə, nəqliyyatda 62,6%-dən 77,7%-ə, rabitədə 57,8%-dən 76,6%-ə yüksəlib, sosial və digər xidmətlər sahəsində isə 2005-ci ildəki 31,8%-dən 2012-ci ildə 49,1%-ə çatıb (Bax cədvəl 1).

**Cədvəl 1**

ÜDM-də qeyri-dövlət bölməsinin,o cümlədən xidmət sahələri üzrə özəl sektorun payı, faizlə

| Göstəricilər | **2000** | **2005** | **2006** | **2007** | **2008** | **2009** | **2010** | **2011** | **2012** |
|---|---|---|---|---|---|---|---|---|---|
| ÜDM cəmi | 70.8 | 77.8 | 81 | 84 | 84.5 | 81.2 | 81.7 | 82.5 | 81.5 |
| Ticarət və xidmətlər | 98.3 | 97.8 | 99.3 | 99 | 99.1 | 99 | 99.2 | 99.7 | 99.7 |
| Nəqliyyat | 62.6 | 37.5 | 46.1 | 76.8 | 82 | 75.4 | 75.3 | 78.1 | 77.7 |
| Rabitə | 57.8 | 80.2 | 79.6 | 80.3 | 72.9 | 80.4 | 78.6 | 76.3 | 76.6 |
| Sosial və sair xidmətlər | 78.8 | 31.8 | 43.8 | 40.3 | 31.7 | 48.8 | 47.0 | 49.4 | 49.1 |

**Mənbə**: Azərbaycanın Statistik Göstəriciləri 2013. ARDSK, Bakı 2013, səh.373

Nəqliyyat, rabitə sektorunda bir sıra sahələr hələ də dövlət nəzarətindədir. Xüsusən də dəmir yolu və hava nəqliyyatı, iri rabitə müəssisələri dövlətə məxsusdur. Dəmir yolu və hava nəqliyyatı kimi sahələrin dövlətin nəzarətində qalması məqbul sayılsa da, rabitə müəssisələrinin özəlləşdirilməsi nəzərdə tutulur. Sosial sahələrdə özəl bölmənin payının 49% olması isə təhsil və səhiyyə sahələrində müəssisələrin əsasən dövlət nəzarətində olması ilə bağlıdır.

2013-cü il yanvarın 1-i vəziyyətinə, Azərbaycanda fəaliyyət göstərən müəssisələrin 11,7%-i dövlət, 2,22%-i bələdiyyə, 5,6%-i xarici, 1,8%-i qarışıq, 78,7%-i isə xüsusi müəssisələrdir.

Azərbaycanda sahibkarlıq müəssisələri bütün xidmət sahələrində fəaliyyət göstərirlər. Son illərdə regionların inkişafı, rayonlarda infrastrukturun müasirləşdirilməsi xidmət sferasında sahibkarlığın inkişafına şərait yaradıb. 2013-cü il yanvarın 1-nə olan göstəricilərə əsasən, Azərbaycanda dövlət registrində qeydə alınmış müəssisələrin 68,9 faizi xidmət müəssisələrinin payına düşür. Ölkə üzrə 78966 müəssisədən 54416-sı müxtəlif xidmət sahələrini əhatə edir.

Mülkiyyət növləri üzrə xidmət müəssisələrinin tərkibinə diqqət yetirilir. 2013-cü il yanvarın 1-i vəziyyətinə, bütün xidmət müəssisələrinin (54416) 76,3 faizi xüsusi və ya özəl (41436), 13,3%-i dövlət (7175), 3,2%-i bələdiyyə (1731), 5,6%-i xarici (3184), 1,6%-i qarışıq (890) mülkiyyətli müəssisələrdir. 21519 ticarət, nəqliyyat vasitələrinin təmiri müəssisəsindən 19034-ü (88,5 faizi), 1023 turistlərin yerləşdirilməsi və ictimai iaşə müəssisəsindən 842-si (82,3 faizi), 1618 nəqliyyat və anbar təsərrüfatı müəssisəsindən 1127-si (69,7 faizi), 1680 informasiya və rabitə müəssisəsindən 1336-sı (79,5 faizi), 1377 maliyyə və sığorta fəaliyyəti müəssisəsindən 1036-sı (75,2 faizi), 792 daşınmaz əmlakla əlaqədar müəssisədən 640-ı (80,8 faizi), 4672 peşə, elmi və texniki fəaliyyət müəssisəsindən 3141-i (67,2 faizi), 2946 inzibati və yardımçı xidmətlərin göstərilməsi müəssisəsindən 2458-i (83,4 faizi), 4858 dövlət idarəetmə və müdafiə, sosial təminat müəssisəsindən 38-i (0,8 faizi), 1213 təhsil müəssisəsindən 668-i (55,1 faizi), 1337 əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi müəssisəsindən 840-ı (62,8%), 1302 istirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət müəssisəsindən 870-i (66,8%), 10079 digər sahələrdə xidmətlərin göstərilməsi müəssisəsindən 9406-sı (93,3%) xüsusi tipli, özəl sahibkarlıq müəssisələridir (Bax cədvəl 2).

**Cədvəl 2.**

**Mülkiyyət növləri üzrə xidmət müəssisələrinin sayı (2013-ci il yanvarın 1-nə)**

| Göstəricilər | Cəmi | Dövlət | Bələdiyyə | Xüsusi | Xarici | Qarışıq |
|---|---|---|---|---|---|---|
| Ticarət, nəqliyyat vasitələrinin təmiri | 21519 | 894 | 0 | 19034 | 1208 | 383 |
| Turistlərin yerləşdirilməsi və içtimai iaşə | 1023 | 50 | 0 | 842 | 96 | 35 |
| Nəqliyyat və anbar təsərrüfatı | 1618 | 262 | 1 | 1127 | 182 | 46 |
| Informasiya və rabitə | 1680 | 209 | 0 | 1336 | 89 | 46 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Maliyyə və sığorta fəaliyyəti | 1377 | 218 | 0 | 1036 | 68 | 55 |
| Daşınmaz əmlakla bağlı əməliyyatlar | 792 | 97 | 0 | 640 | 42 | 13 |
| Peşə, elmi və texniki fəaliyyət | 4672 | 649 | 1 | 3141 | 795 | 86 |
| İnzibati və yardımçı xidmətlər | 2946 | 271 | 1 | 2458 | 155 | 61 |
| Dövlət idarəetməsi və müdafiə, sosial təminat | 4858 | 3097 | 1719 | 38 | 3 | 1 |
| Təhsil | 1213 | 471 | 0 | 668 | 63 | 11 |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 1337 | 407 | 0 | 840 | 66 | 24 |
| İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət | 1302 | 394 | 4 | 870 | 17 | 17 |
| Digər sahələrdə xidmətlərin göstərilsi | 10079 | 156 | 5 | 9406 | 400 | 112 |
| Ölkə üzrə cəmi xidmət müəssisələri | 54416 | 7175 | 1731 | 41436 | 3184 | 890 |
| Bütün xidmət müəssisələri üzrə xüsusi çəkisi, faizlə | 100 | 13.3 | 3.2 | 76.3 | 5.6 | 1.6 |

**Qeyd**: ARDSK-nın məlumatları əsasında müəllif tərəfindən tərtib olunub. Azərbaycanın statistik göstəriciləri 2013. ARDSK, Bakı 2013, səh. 660.

Ölkədə yaradılmış əlverişli iqtisadi şərait, mühit, xüsusən də «bir pəncərə» sistemi ilə dövlət qeydiyyatına alınmanın tədbiqi fərdi sahibkarlığın inkişafına da geniş imkanlar açmışdır. 2013-cü il yanvarın 1-nə Azərbaycanda fərdi sahibkarların sayı artaraq 432141-ə çatmışdır. 2011-ci ildə bu rəqəm 307 min nəfər olub. İki il ərzində fərdi sahibkarların sayı 125 min artımşdır ki, bu da bu sahədə dinamik artımdan xəbər verir. İqtisadiyyatın bütün sahələrində fərdi sahibkarların sayının artımı müşahidə edilir. Fərdi sahibkarların 84,7%-i və ya 365,7 mini xidmət sahələrində fəaliyyət göstərirlər (Bax cədvəl 3).

2013-cü il yanvarın 1-nə ölkə üzrə hüquqi şəxs yaratmadan fəaliyyət göstərən fərdi sahibkarların 39,7%-i ticarət, nəqliyyat vasitələrinin təmiri, 17,3%-i nəqliyyat və anbar təsərrüfatı, 5,3%-i turistlərin yerləşdirilməsi və ictimai iaşə, 0,4%-i təhsil, 1,1%-i

informasiya və rabitə, 0,3%-i maliyyə və sığorta fəaliyyəti, 1,3%-i istirahət, əyləncə və incəsənət sahəsində, 1,9%-i daşınmaz əmlakla əlaqədar əməliyyatlar, 1,7%-i peşə, elmi və texniki fəaliyyət, 0,7%-i inzibati və yardımçı xidmətlərin göstərilməsi, 0,9%-i ev tərərrüfatları, 0,5%-i əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 13,6%-i isə digər sahələrdə xidmətlərin göstərilməsi sektorlarını əhatə edir. Göründüyü kimi, fərdi sahibkarlar daha çox xidmət sferasına aid olan ticarət və nəqliyyat vasitələrinin təmiri sahələrində çalışırlar. Bu isə xidmət sahələrində fərdi sahibkarlıq fəaliyyəti üçün daha əlverişli şəraitin və imkanların olması ilə əlaqədardır (Bax cədvəl 3).

**Cədvəl 3.**

**Xidmət sferasında hüquqi şəxs yaratmadan fəaliyyət göstərən fərdi sahibkarların sayı (yanvarın 1-nə)**

| Göstəricilər | 2011 | | 2012 | | 2013 | |
|---|---|---|---|---|---|---|
| | ədəd | faizlə | ədəd | faizlə | ədəd | faizlə |
| Ölkə üzrə fərdi sahib-karlar – cəmi | 306933 | 100 | 364581 | 100 | 432141 | 100 |
| Xidmət sahə-lərində – cəmi | 264797 | 86.4 | 311787 | 85.6 | 365654 | 84,7 |

**Qeyd**: ARDSK-nın məlumatları əsasında müəllif tərəfindən tərtib olunub. Azərbaycanın statistik göstəriciləri 2013. ARDSK, Bakı 2013, səh. 662.

2012-ci ilin statistik göstəricilərinə əsasən, ölkədəki bütün kiçik sahibkarlıq subyektlərinin 96%-i xidmət sferasında fəaliyyət göstərir. 248 min kiçik sahibkarlıq subyektindən 238 mini xidmət sahələrindədir. İnkişaf etmiş ölkələrin təcrübəsinə əsasən kiçik sahibkarlığın inkişafı Azərbaycan üçün də xarakterik olan aşağıdakı bir sıra problemlərin həllində mühüm rol oynayır:

- cəmiyyətin, əhalinin məhsul və xidmətələrə olan tələbatının daha yaxşı ödənilməsinə imkan verən, rəqabətə əsaslanan sivil bazar münasibətlərinin formalaşması;
- məhsul və xidmətlərin çeşidlərinin, keyfiyyətinin genişlənməsi. İstehlakçıların tələbatını ödəməyə can atan kiçik biznes həm də xidmətlərin keyfiyyətinin və xidmət mədəniyyətinin yüksəlməsinə səbəb olur;
- xidmətlər istehsalının konkret istehlakçıya yönəlməsi;

- iqtisadiyyatın strukturunun yenidən qurulmasına təsir. Kiçik sahibkarlıq iqtisadiyyata çeviklik, sürətlə hərəkət etmə qabiliyyəti, manevr imkanları verir;
- əhalinin şəxsi vəsaitlərinin xidmətlərin inkişafına cəlb olunması;
- yeni iş yerlərinin yaradılması və işsizlik səviyyəsinin azaldılması;
- insanların yaradıcılıq, təşəbbüskarlıq qabiliyyətlərindən daha effektiv istifadə olunması və s.

Dissertasiyanın **"Xidmət sferasında sahibkarlığın inkişaf etdirilməsinin əsas istiqamətləri"** adlı III fəslində xidmət sferasında sahibkarlığın inkişaf etdirilməsinin əsas istiqamətləri tədqiq olunmuşdur. Burada dövlət tərəfindən sahibkarlıq fəaliyyətinin dəstəklənməsi və tənzimlənməsinin əsas istiqamətləri verilmiş, xidmət sahələrinin inkişafı ilə Ümumi Daxili Məhsulun artımı arasında əlaqəni əks etdirən ekonometrik model qurulmuş, habelə xidmət müəssisələrinin rəqabət qabiliyyətinin yüksəldilməsi və innovasiyaların tətbiqi istiqamətləri göstərilir.

Azərbaycanda sahibkarlığın inkişafı, səmərəli və müasir iqtisadiyyatın formalaşmasına müsbət təsiri daha çox dövlət-sahibkar münasibətlərinin nə dərəcədə düzgün qurulmasından asılıdır. Dövlət nəzarəti sahibkarın işgüzar fəaliyyətinə inzibati müdaxiləyə deyil, problemlərin və çətinliklərin vaxtında aşkar edilməsi və optimal yollarla aradan qaldırılmasına yönəldilməli, münasibətlərin bazar iqtisadiyyatının müasir, sivil prinsiplərinə uyğun olaraq tənzimlənməsinə əsaslanmalıdır. Müasir mərhələdə Azərbaycan iqtisadiyyatında dövlət iqtisadiyyatın bütün sektorlarını birbaşa və dolayı iqtisadi mexanizmlərlə tənzimləməklə mülkiyyətin bütün formalarının inkişafı üçün şərait yaradır.

Xidmət sahələrində sahibkarlıq fəaliyyəti iqtisadiyyatda xüsusi çəkiyə və əhəmiyyətə malik olmaqla yanaşı ÜDM-in artımında, bir çox sosial-iqtisadi məsələlərin, məşğulluq, işsizlik kimi problemlərin həllində, insan kapitalının inkişafında, həyat səviyyəsinin yüksəlməsində, insanların tələbatının ödənilməsində və s. mühüm rol oynayır. Müasir şəraitdə xidmət sferasının iqtisadiyyatdakı rolu aşağıdakı kimi özünü göstərir:
- milli iqtisadiyyatda mühüm sektor kimi çıxış edir;
- insan kapitalının inkişafında mühüm rol oynayır;
- maddi istehsalın inkişafına artan təsir göstərir;
- cəmiyyətin və insanların tələbatının formalaşmasına, inkişafına və daha yaxşı ödənilməsinə imkanlar yaranır;

- müasir həyat keyfiyyətinin formalaşmasında mühüm element kimi çıxış edir;
- ölkənin rəqabət qabiliyyətinin yüksəlməsini və iqtisadi artımı təmin edir.

Əvvəlki bölmələrdə aparılmış araşdırmalar və inkişaf etmiş ölkələrin təcrübəsi ğöstərir ki, həmin ölkələrdə xidmət sferasından əldə olunan gəlir ÜDM-in həcmində daha çox xüsusi çəkiyə malikdir. Yəni, ÜDM-in həcminin artımı ölkənin iqtisadi qüdrətini, onun sosial-iqtisadi inkişafını xarakterizə edir. Deməli, ÜDM ölkənin iqtisadi inkişafını xarakterizə edən əsas göstəricilərdən olduğundan, respublikanın xidmət sferasına daxil olan sahələrin inkişafının ÜDM-nin artımına təsirini xarakterizə edən, birbaşa əlaqəni göstərən ekonometrik modelin qurulması aktual məsələlərdən biridir. Bu məqsədlə respublikanın ÜDM-nin həcmində xidmət sferasının tərkibinə daxil olan sahələrin son 10 ili əhatə edən makroiqtisadi statistik göstəricilərindən ibarət cədvəldən istifadə olunur. 9 xidmət sahəsinin inkişafı ilə ÜDM-nin artımı arasında qarşılıqlı əlaqə ümumi şəkildə aşağıdakı kimidir:

$$Y=F(x_1,x_2,x_3,x_4,x_5,x_6,x_7,x_8,x_9) \qquad (1.1)$$

Burada Y – ÜDM istehsalı, F - funksiya, $x_1$ - topdan - və pərakəndə ticarət, avtomobillərin, məişət məmulatlarının və şəxsi istifadə əşyalarının təmiri, $x_2$ - mehmanxana və restoranlarda xidmətlərin göstərilməsi, $x_3$ - nəqliyyat, anbar təsərrüfatı və rabitə, $x_4$ - maliyyə fəaliyyəti, $x_5$ - daşınmaz əmlakla əlaqədar əməliyyatlar, icarə və istehlakçılara xidmət, $x_6$ - dövlət idarəetməsi və mudafiə, sosial təminat, $x_7$ - təhsil, $x_8$ - səhiyyə və sosial xidmətlərin göstərilməsi, $x_9$ - digər kommunal, sosial və şəxsi xidmətlərin gostərilməsi sahələridir.

(1.1) ekonometrik asılılıq aşağıdakı qeyri-xətti reqresiya modeli kimi tapılır:

$$Y=a_0 \prod_{i=1}^{9} x_i^{\alpha_i} \qquad (1.2)$$

Burada $a_0$ və $a_1$ (i=1,.....,9) – reqresiya modelinin korrelyasiya əmsallarıdır. Bəzən bu əmsallara elastiklik əmsalı da deyilir. $x_i$ (i=1,.....,9) reqresiya modelinin dəyişənləri olub, xidmət sferasına daxil olan sahələrin makroiqtisadi göstəricilərinə uyğundur. (1.2) reqresiya modelinin hər iki tərəfini loqarifmləsək, onda bu ekonometrik model aşağıdakı formada olar:

$$Lny = Ln\ a_0 + \sum_{i=1}^{n} \alpha_i\ Ln(x_i)\ , \qquad (1.3)$$

(1.3) ekonometrik modelə kompüterdə tərtib edilmiş reqresiya modelinin proqramı tətbiq edilir. Bu məqsədlə xidmət sferası sahələrinin makroiqtisadi göstəriciləri əsasında reqresiya modelinin verilənlər cədvəlindən istifadə olunur. Həmin hesablamalar əsasında (1.3) reqresiya modelinin verilənlər cədvəli qurulur.

Cədvəl 4

Verilənlərin loqarifmik qiymətləri

| № | Ln(y) | Ln(x1) | Ln(x2) | Ln (x3) | Ln (x4) | Ln (x5) | Ln (x6) | Ln (x7) | Ln (x8) | Ln (x9) |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | 8,4592 | 5,6914 | 2,9285 | 6,3405 | 3,7796 | 4,8590 | 4,5643 | 5,4510 | 4,4648 | 5,3831 |
| 2 | 8,5784 | 5,9743 | 3,0587 | 6,2895 | 4,1759 | 5,1299 | 4,9586 | 5,4951 | 4,5053 | 5,1293 |
| 3 | 8,7099 | 6,1166 | 3,1697 | 6,3921 | 4,1368 | 4,9301 | 5,3008 | 5,5138 | 4,4067 | 5,0864 |
| 4 | 8,8744 | 6,2289 | 3,5025 | 6,5706 | 4,445 | 5,3622 | 5,5737 | 5,4596 | 4,7167 | 4,7766 |
| 5 | 9,0514 | 6,4022 | 3,9589 | 6,6999 | 4,7536 | 5,5182 | 5,8069 | 5,6910 | 4,8575 | 4,8024 |
| 6 | 9,4353 | 6,6349 | 4,2599 | 6,8374 | 5,155 | 5,1807 | 5,9338 | 5,7401 | 5,1596 | 5,0956 |
| 7 | 9,8387 | 6,9135 | 4,6131 | 7,1252 | 5,515 | 5,8144 | 6,1921 | 6,0638 | 5,5790 | 5,6716 |
| 8 | 10,253 | 7,2612 | 5,095 | 7,6413 | 6,0605 | 6,0132 | 5,9159 | 6,5988 | 5,4860 | 5,7576 |
| 9 | 10,6 | 7,7085 | 5,7272 | 7,8987 | 6,5643 | 6,4897 | 6,3956 | 7,0275 | 6,3048 | 6,4405 |
| 10 | 10,48 | 7,7752 | 5,8542 | 8,0447 | 6,6338 | 6,6099 | 6,6397 | 7,1736 | 6,4601 | 6,9964 |
| 11 | 10,635 | 7,9186 | 6,0742 | 8,0962 | 6,6661 | 7,0467 | 6,6638 | 7,2174 | 6,5265 | 6,444 |

Mənbə: ARDSK-nın məlumatları əsasında müəllif tərəfindən hesablanıb.

Reqresiya modelinin alqoritminin tətbiqi nəticəsində ekonometrik modelin aşağıdakı korrelyasiya əmsalları tapılmışdır:
$Ln\ a_0 = 7{,}6$; $a_1 = 1{,}8$; $a_2 = 1{,}0$; $a_3 = 0{,}1$; $a_4 = 0{,}1$; $a_5 = 0{,}2$; $a_6 = -0{,}8$; $a_7 = -2{,}0$; $a_8 = -0{,}6$; $a_9 = 0{,}5$.

Bu əmsalları (1.3) reqresiya modelində yerinə yazsaq, onda təklif edilmiş ekonometrik model aşağıdakı formada olar:

$$\mathbf{Lny = 7{,}6 + 1{,}8lnx_1 + lnx_2 + 0{,}1lnx_3 + 0{,}1lnx_4 + 0{,}2lnx_5 - 0{,}8lnx_6 - 2lnx_7 - 0{,}6lnx_8 + 0{,}5lnx_9}, \qquad (1.4)$$

Alınmış (1.4) modeli xidmət sferasına daxil olan sahələrin inkişafı ilə ÜDM-nin artımı arasında asılılığı göstərən ekonometrik model adlanır. Beləliklə, təklif edilmiş (1.4) ekonometrik modeli xidmət sahələrinin prespektiv inkişafı üzrə aşağıdakı proqnoz mülahizələri söyləməyə əsas verir:

1. Topdan və pərakəndə ticarət, avtomobillərin, məişət məmulatlarının və şəxsi istifadə əşyalarının təmiri sahəsinin 1%a artması ÜDM-in 1,8% artmasına gətirib çıxarar.
2. Mehmanxana və restoranlarda xidmətlərin göstərilməsi sahəsinin 1% artması ÜDM-in 1% artmasına gətirib çıxarar.
3. Nəqliyyat, anbar təsərrüfatı və rabitə sahəsinin 1% artması ÜDM-in 0,1% artmasına gətirib cıxarır.
4. Maliyyə fəaliyyəti sahəsinin 1% artması ÜDM-in 0,1% artmasına gətirib çıxarır.
5. Daşınmaz əmlakla əlaqədar əməliyyatlar, icarə və istehlakçılara xidmət göstərilməsi sahəsinin 1% artması UDM-in 0,2% artmasına gətirib cıxarır.
6. Dovlət idarəetməsi və mudafiə, sosial təminat sahəsinin 1% azalması ÜDM-in 0,8% azalmasına səbəb olar.
7. Təhsil sahəsinin 1% azalması ÜDM-in 2% azalmasına gətirib cıxarır.
8. Səhiyyə və sosial xidmətlərin gostərilməsi sahələrinin 1% azalması ÜDM-in 0,6% azalmasına səbəb olur.
9. Digər kommunal, sosial və şəxsi xidmətlərin gostərilməsi sahəsinin 1% artması ÜDM-in 0,5% artmasına gətirib cıxarır.
10. (1.3) ekonometrik modelində 7,6 əmsalı onu deməyə əsas verir ki, reqresiya modelinə daxil olmayan xidmət sferasının digər sahələrinin 1% artması, nəticədə ÜDM-in həcminin 7,6 % artmasına gətirib cıxarır.

$R^2$=0,99~1 olması xidmət sferasının sahələri ilə ÜDM-in artımı arasında korrelyasiya əlaqəsinin olduğunu, yəni təklif edilmiş ekonometrik modelin adekvatlığını əks etdirir.

(1.4) ekonometrik modelinə xidmət sferasına daxil olan sahələrin strateji inkişafının proqnoz modeli də demək olar. Bu model respublikamızda fəaliyyət gostərən xidmət sferası sahələrinin ranqlaşdırılmasını həyata keçirməklə, bu sahələrin strateji tənzimlənməsi yollarını da formalaşdırmağa imkan verər. Bütün bunlar isə respublika iqtisadiyyatında xidmət sferasının davamlı və dayanıqlı inkişafına gətirib çıxarar, rəqabətədavamlı aparıcı sahəyə çevrilə bilər.

Respublikamızda xidmət sferasında sahibkarlığın inkişaf etməsi üçün rəqabət mühitinin formalaşması mühüm əhəmiyyət kəsb edir. Müəssisənin rəqabət qabiliyyətli olmasının əsasını onun təklif etdiyi xidmətlərin rəqabət qabiliyyəti təşkil edir. Xidmətlərin rəqabət qabiliyyətliliyi onun rəqiblərinin təklif etdiyi xidmətlərdən üstün olmasında özünü göstərir. İki element - istehlak xassələri və qiymət xidmətlərin rəqabət qabilyyətinin əsasını təşkil edir. Ancaq müasir şəraitdə xidmətlərin keyfiyyətli və qiymətinin aşağı olması da bütün

məsələləri həll etmir. Uğur qazanmağa və ya rəqabətdə uduzmamağa başqa faktorlar - reklam fəaliyyəti, servis xidmətinin səviyyəsi də mühüm təsir göstərir. Sahibkarlıq fəaliyyətində uğur qazanmaq üçün xidmətlərin (məhsulun) rəqabətqabiliyyətliliyi formulunua əməl etmək zəruridir:

**Rəqabətqabiliyyətlilik = keyfiyyət + qiymət + xidmət**

Bu üç amilin düzgün idarə edilməsi sahibkarların bazarda təklif etdikləri xidmətlərin rəqabət qabiliyyətli olmasını təmin edə bilər. Bunun üçün xidmətlərin kefiyyətinin artırılması, xərclərin azaldılması yolu ilə qiymətlərin aşağı salınması, istehlakçıya xidmət səviyyəsinin yüksəldilməsi mühüm amillərdir. Bu amillərin hər biri çoxsaylı faktorlardan asılıdır.

Rəqabətin hərəkətverici qüvvəsi yeniliklərin tədbiqinə olan maraq, stimuldur. Məhz yeniliklərin tədbiqi nəticəsində məhsulun, xidmətlərin keyfiyyətini artırmaq, xidmətlərin səmərəliliyini, effektivliyini yüksəltmək, rəqiblərdən üstünlüyə nail olmaq mümkündür. Xidmətlərin rəqabətqabiliyyətliliyinin təmin olunması isə sahibkardan novatorluq, yeni yanaşma, innovasiyaların reallaşdırılmasını tələb edir. Xüsusən də yeni texnologiyların tədbiqi, ölkəmizdə müasir xidmətlər sisteminin inkişafı, sahibkarlıq müəssisələrinin fəaliyyətinin düzgün idarə edilməsi əhəmiyyətli məsələdir. Xidmət sferasında innovasiyaların həyata keçirilməsi sahibkarlıq müəssisələrinin nəinki bazarda rəqabətə dözməsinə imkan verər, həm də onlar inkişaf edərlər.

Bazar iqtisadiyyatı şəraitində yeniliyin mənimsənilməsi və tədbiqi, kiçik innovasiya sahibkarlığının inkişafı Azərbaycanda xidmətlərin elmtutumlu və yüksək səmərəli olması ilə nəticələnə bilər. Hazırda elmi-texniki sferada sahibkarlıq fəaliyyəti demək olar ki, formalaşmayıb və bu sahəyə investisiya qoyulmur. Əslində elmi axtarışları və elmi-tədqiqat işlərini yerinə yetirən kiçik innovasiya sahibkarlığının formalaşmasına diqqət yetirilməli, bu sahənin inkişafına əlverişli şərait yaradılmalı və dövlət tərəfindən stimullaşdırılmalıdır. Bütün bunları həyata keçirməklə ümumilikdə ölkənin sosial-iqtisadi inkişafına əhəmiyyətli təsir göstərmək olar.

**Aparılmış tədqiqat aşağıdakı bir sıra nəticə və təklifləri irəli sürməyə imkan verir:**

Apardığımız tədqiqat əsasında bu nəticəyə gəlmək olar ki, Azərbaycanda xidmət sferasında sahibkarlıq fəaliyyəti formalaşıb, inkişaf edir, dövlət tərəfindən dəstəklənir və bazar iqtisadiyyatı prinsipləri əsasında tənzimlənir. Müəyyən çətinliklər, problemlər olsa da, xidmət sferasında sahibkarlığın daha da inkişaf etdirilməsi mühüm

əhəmiyyət kəsb edir. Çünki ölkə iqtisadiyyatında bir çox sosial-iqtisadi problemlərin həlli, yeni iş yerlərinin yaradılması, əhaliyə yüksək səviyyədə xidmətlərin göstərilməsi, xidmətlərin keyfiyyətinin yüksəldilməsi və rəqabət qabiliyyətinin artırılması, əhalinin tələbatının ödənilməsi, insanların həyat səviyyəsinin və keyfiyyətinin müasirləşdirilməsi, yeniliklərin tətbiqi məhz sahibkarların öhdəsinə düşür.

Dissertasiya işinin sonunda tədqiqatın nəticələri ümumiləşdirilmiş, Azərbaycanda xidmət sferasında sahibkarlığın daha da inkişaf etdirilməsi və səmərəli tənzimlənməsi üçün aşağıdakı təklif və tövsiyyələr irəli sürülmüşdür:

- Sahibkarlığa dövlət dəstəyi tədbirlərinin səmərəsinin yüksəldilməsi, dövlət-sahibkar münasibətlərinin daha da inkişaf etdirilməsi, sahibkarlığın dövlət tənzimlənməsi sisteminin, biznes mühitinə dair qanunvericiliyin və inzibati prosedurların təkmilləşdirilməsi;

- Sahibkarlığın məsləhət, informasiya təminatının gücləndirilməsi və işgüzar əlaqələrinin inkişafı istiqamətində sahibkarların təşəbbüskarlığı və hüquqi biliklərinin artırılmasına, yeni iqtisadi şəraitdə müasir təcrübənin mənimsənilməsinə istiqamətlənmiş kompleks tədbirlər reallaşdırılmalıdır. Sahibkarlıq subyektlərinə tədris-metodiki, innovasiya və məsləhət xidmətlərinin göstərilməsi;

- Xidmət sferasında sahibkarlığın inkişafının zəruri şərtlərindən biri də səmərəli tənzimləmədir. Bazar münasibətləri şəraitində tənzimləmə yalnız inzibati xarakter daşımamalı, həm də müəyyən stimullaşdırıcı əlamətlərə malik olmalıdır. Sahibkarlıq fəaliyyətinin dövlət tərəfindən tənzimlənməsində daha çox dolayı medodlara – güzəştlı kreditləşdirmə, proqnozlaşdırma, informasiya dəstəyi, dövlət sifarişləri, vergi güzəştləri və s. kimi iqtisadi təsir vasitələrinə üstünlük verilməlidir. Dövlət sahibkarlığın inkişafı üçün hər şeydən əvvəl daha əlverişli investisiya mühiti formalaşdırmalıdır.

- Xidmət sahələrinin inkişafı ilə Ümumi Daxili Məhsulun artımı arasında asılılığı göstərən ekonometrik model əsasında xidmət sferasına daxil olan perspektiv sahələrin inkişaf etdirilməsi;

- Səhiyyə, təhsil və sosial xidmətlər kimi sahələrə dövlət qayğısının artırılması, bu sektorlarda özəl sektorun formalaşması və inkişafının dəstəklənməsi, stimullaşdırılması;

- Rəqabət qabiliyyətli iqtisadiyyat şəraitində Azərbaycanın xidmət sferasında azad sahibkarlıq fəaliyyətinin inkişafına dövlət yardımının artırılması tədbirlərindən biri kimi kiçik sahibkarlıq

subyektlərinin girovsuz mikrokreditlər əldə etməsinə şərait yaradılmalıdır. Sahibkarlara ayrılan kreditlər üzrə girov şərtlərinin yumşaldılması, özəl bankların kredit faizlərinin biznes üçün daha əlverişli hədlərdə müəyyənləşdirilməsi;

- Ənənəvi iqtisadiyyat sahələrində fəaliyyət göstərən işçilərin sayının azaldılması (məsələn, aqrar sektorda), onların peşə-ixtisas səviyyəsinin artılması vasitəsilə xidmət sahələrində işlə təmin olunmasına şərait yaradılmalıdır. Xidmət sahələrində kadr hazırlığına və kadrların peşəkarlığına diqqətin artırılması;

- Davamlı və sistemli biznes xidmətləri göstərən qurumların yaradılmasının dəstəklənməsi, onların maddi-texniki bazasının gücləndirilməsi; sahibkarlığın dəstəklənməsinin müasir təşkilati modellərinin (biznes inkubatorlar, biznes mərkəzlər və s.) yaradılmasının sürətləndirilməsi;

- Beynəlxalq və respublika səviyyəli işgüzar forumların, investisiya konfranslarının və sərgilərin keçirilməsi və əhatə dairəsinin genişləndirilməsi;

- Müasir mərhələdə respublikamızda həyata keçirilən vergi islahatlarının başlıca məqsədlərindən biri iqtisadi artımı stimullaşdıran vergi sisteminin yaradılmasından ibarət olmalıdır. Vergi xidmətinin əsas hədəfləri - vergi sisteminin sabitliyi, vergi inzibatçılığının sahibkarlar üçün maksimum rahat və əlverişli olması, iqtisadiyyatın strukturunun formalaşdırılmasında və innovasiyaların dəstəklənməsi sayəsində vergilərin stimullaşdırıcı rolunun artırılması olmalıdır. Regionlarda İKT, turizm, təhsil və səhiyyə xidmətləri göstərən sahibkarlara vergi güzəştlərinin verilməsi;

- Xidmət müəssisələrinin rəqabət qabiliyyətinin yüksəldilməsi məqsədilə xidmətlərin keyfiyyətinin yüksəldilməsinə və xidmət qiymətlərinin istehlakçılar üçün daha ucuz və əlverişli olmasına nail olunmalıdır. Yerli sahibkarların maraqlarının qorunması, xidmətlər ixracının stimullaşdırılması;

- Əhaliyə pullu xidmətlər göstərən müəssisələrin strateji inkişaf və biznes-planlar əsasında fəaliyyətinin genişləndirilməsi; sahibkarlar tərəfindən əhaliyə təklif olunan pullu xidmətlərin strukturunun optimallaşdırılması, xidmətlərin keyfiyyətinin və xidmət səviyyəsinin yüksəldilməsi;

- Rəqabət qabiliyyətinin yüksəldilməsi üçün azad rəqabət və əlverişli sahibkarlıq mühiti təmin edilməli, innovasiya sahibkarlığı stimullaşdırılmalı, elmtutumlu sahələrin inkişafı dəstəklənməlidir. Burada həm texnoloji yeniliklərin tətbiqini, həm də idarəetmədə yeni

mexanizimləri, innovasiya menecmentini nəzərdə tutmaq lazımdır. Elmi axtarışları və elmi-tədqiqat işlərini yerinə yetirən kiçik innovasiya sahibkarlığının formalaşmasına əlverişli şərait yaradılmalı və dövlət tərəfindən stimullaşdırılmalıdır.

**Dissertasiya işinin əsas müddəaları müəllifin çap olunmuş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**

1. Azərbaycanda sahibkarlıq fəaliyyətinin genişləndirilməsi məsələləri // "Müasir mərhələdə Azərbaycanda yeni iqtisadi sistemə keçidin qanunauyğunluqları və problemləri". Kollektiv monoqrafiya. AMEA İqtisadiyyat İnstitutu. Bakı, 1998. səh.150-154,(həmmüəllif Əliyeva G.T.)
2. Özəlləşdirmənin xidmət sahələrində sahibkarlığın inkişafına təsiri məsələləri. "Azərbaycan iqtisadiyyatı: problemlər, perspektivlər". Elmi-praktik konfransın materialları. AMEA İqtisadiyyat İnstitutu. Bakı, 2002. səh. 216-217.
3. Sahibkarlığın inkişafına dövlət yardımı məsələləri . "Azərbaycan Respublikasında milli sahibkarlığın formalaşması və inkişafının əsas istiqamətləri" mövzusunda elmi-praktiki konfransın materialları. AMEA İqtisadiyyat İnstitutu, Bakı Biznes Universiteti. Bakı, 2002. səh. 336-338.
4. Sahibkarlığın inkişafında vergi siyasətinin rolu. "Çoxmülkiyyətçilik şəraitində kooperasiyanın inkişafının sosial-iqtisadi problemləri" mövzusunda elmi-praktiki konfransın materialları. Azərbaycan Kooperasiya Universiteti. Bakı, 2002. səh.185-187.
5. Xidmət sferasında sahibkarlığın xüsusiyyətləri. "Azərbaycan iqtisadiyyatı yüksəliş yolunda" məqalələr toplusu, V (XIV) buraxılış. AMEA İqtisadiyyat İnstitutu. Bakı, 2003. səh. 315-320.
6. Regionların sosial-iqtisadi inkişafında sahibkarlığın rolu. "Qloballaşma və regional iqtisadi inkişaf" mövzusunda beynəlxalq konfransın məqalələr toplusu. Azərbaycan Dövlət İqtisad Universiteti, Bakı, 2004. səh. 198-202. ,(həmmüəllif Rizayeva S.H.)
7. Xidmət sferasında sahibkarlığın təşəkkülünün xüsusiyyətləri // «Azərbaycanda sahibkarlığın inkişafının bazar mexanizmləri», kollektiv monoqrafiya. AMEA İqtisadiyyat İnstitutu. Bakı, Elm, 2008. səh 196-218.
8. Azərbaycanda dinamik inkişaf edən İKT sektoru. „Azərbaycan iqtisadiyyatında keçid dövrünün başa çatması: təhlil və nəticələr. Milli inkişaf modelinin formalaşması problemləri" mövzusunda respublika elmi-praktik konfransın materialları. AMEA İqtisadiyyat İnstitutu, Azərbaycan İqtisadçılar İttifaqı, Azərbaycan Dövlət İqtisad Universiteti. Bakı 2010. səh.805-807.

9. Rabitə xidmətlərinin və bu sektorda sahibkarlığın inkişafı tendensiyaları. "Elmə həsr olunmuş şərəfli ömür. i.e.d.; professor Mədət Allahverdiyevin anadan olmasının 80-ci ildönümünə həsr olunmuş elmi-nəzəri konfransın materialları". AMEA İqtisadiyyat İnstitutu, Bakı 2010.səh.111-114
10. Qloballaşma şəraitində respublikanın xidmət sferasında sahibkarlıq fəaliyyətinin inkişafı tendensiyaları. "Qloballaşma şəraitində davamlı inkişafın aktual problemləri" mövzusunda H.Əliyevin anadan olmasının 88-ci ildönümünə və müasir Azərbaycan dövlətçiliyinin 93 illiyinə həsr edilmiş beynəlxalq konfransın materialları. Bakı, Azərbaycan Universiteti. 2011. səh.98-100.
11. Regionlarda sahibkarlığın inkişafı problemləri. "Azərbaycan regionlarının sosial-iqtisadı inkişafı: problemlər, inkişaf meyilləri" mövzusunda respublika elmi-praktik konfransın materialları. AMEA İqtisadiyyat İnstitutu. Bakı 2011. səh. 151-153.
12. Klassik Qərb və müasir Azərbaycan alimlərinin sahibkarlığa elmi-nəzəri baxışları. AMEA-nın Xəbərləri, İqtisadiyyat seriyasi jurnalı, №2, Bakı 2012. səh.64-69.
13. Xidmət sferasında sahibkarlığın inkişafının sosial-iqtisadi aspektləri. AMEA İqtisadiyyat İnstitutu, Elmi əsərlər. №2, Bakı 2012. səh.320-326.
14. Dövlət tərəfindən sahibkarlıq fəaliyyətinin tənzimlənməsi istiqamətləri. «Milli iqtisadiyyatın inkişafı və səmərəliliyinin yüksəldilməsi» mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları. Azərbaycan Respublikası Təhsil Nazirliyi, Azərbaycan İqtisadçılar İttifaqı, AMEA İqtisadiyyat İnstitutu, Azərbaycan Kooperasiya Universiteti, Bakı 2012. Səh. 403-405.
15. Туризм как современный фактор экономической интеграции стран. Международная научно-практическая конференция «Международные отношения и интеграционные проекты на постсоветском пространстве». Факультет общестенных наук и международных отношений Днепропетровского Национального Университета имени Олеся Гончара. Украина, Днепропетровск, 2012. стр. 117-119.
16. Azərbaycanda xidmət sferasında sahibkarlıq fəaliyyətinin müasir vəziyyətinin təhlili və qiymətləndirilməsi. AMEA İqtisadiyyat İnstitutu, Elmi əsərlər. №2, Bakı 2013. səh.51-58.
17. Особенности развития предпринимательства в сфере услуг Азербайджана. Российский журнал «Вестник экономической интеграции», №4, Москва 2013. стр. 96-101.
18. Azərbaycanda milli sahibkarlığın formalaşması və inkişafı meylləri. AMEA-nın Xəbərləri, İqtisadiyyat seriyasi jurnalı, №2, Bakı 2013. səh.35-41.

**Зейналов Махир Хамза оглы**

## Регулирование предпринимательской деятельности в сфере услуг и основные направления ее развития

### Резюме

Диссертация состоит из введения, трех глав, 9 параграфов, заключения и предложений, списка использованной литературы.

Во **введении** диссертационной работы обосновывается актуальность темы и выбор объекта исследования, определяются цели и задачи, а также объект и предмет исследования, раскрывается научная новизна работы и ее практичексая значимость.

В первой главе под названием **«Теоретико-методологичексие основы предпринимательской деятельности в сфере услуг»** обобщены научно-теоретические взгляды западных и современных азербайджанских ученых на предпринимательство и подробно раскрыта сущность, функции предпринимательства, его роль в развитии экономики, на мировом опыте исследованы место и значение сферы услуг в экономике, основные особенности предпринимательской деятельности в сфере услуг.

Во второй главе – **«Анализ современного состояния предпринимательства в сфере услуг»** - дан анализ и оценка современного состояния предпринимательства в сфере обслуживания, в том числе дан подробный анализ и оценка тенденций развития предпринимательства в Азербайджане в годы независимости, а также нынешнего состояния сферы услуг и особенностей ее развития.

В третьей главе - **«Основные направления развития предпринимательства в сфере услуг» -** изучены основные направления развития предпринимательства в сфере услуг. Здесь указаны основные направления государственной поддержки и регулирования предпринимательской деятельности, создана эконометрическая модель, которая отражает связь развития сфер обслуживания с ростом Валового Внутреннего Продукта, а также даны направления повышения конкурентоспособности обслуживающих предприятий и внедрения инноваций.

В конце работы даны заключение и предложения по проведенному исследованию.

**Mahir Hamza oglu Zeynalov**

## The regulation entrepreneurial activity in service sphere and its main development directions

### Resume

The dissertation work consists of the introduction, III chapters, including IX paragraphs, results and suggestions and the list of used literatures.

In the introduction of dissertation work urgency of the theme and choose of research object is substantiated, purposes and missions, object and subject of research is definited, scientific innovation and practical importance of work are also shown.

In the first chapter of dissertation work "Theoretical-methodical basis of entrepreneurial activity in service sphere" scientific-theoretical opinions of classic West and modern Azerbaijan scientists about entrepreneurial activity are generalized, its role on economic development are shown, accordingly to world practice place and importance of service sphere in national economy, main peculiarities of entrepreneurial activity in service sphere are analyzed as well.

In the second chapter of dissertation work "The analyze and estimation modern condition of entrepreneurship in service sphere" modern condition of entrepreneurship are analyzed and estimated. In independent years development tendencies of entrepreneurship, modern condition and development peculiarities of service sphere, condition of entrepreneurship activity in Azerbaijan have been analyzed and estimated as well.

In the third chapter of dissertation work "The main directions development of entrepreneurship in service sphere" main directions of development of entrepreneurship in service sphere are analyzed. In this chapter support of entrepreneurship activity and regulation its main directions by state are given, for connection between development of service fields and growth of GDP main econometric model are formed, for increasing competitiveness of service enterprises and realiziation of innovation trends are also shown.

In the end of the dissertation work effective results and suggestions have been given.

AMEA-nın mətbəəsində çap olunub

Tiraj-100

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ЭКОНОМИКИ**

На правах рукописи

**МАХИР ХАМЗА оглы ЗЕЙНАЛОВ**

# РЕГУЛИРОВАНИЕ ПРЕДПРИНИМАТЕЛЬСКОЙ ДЕЯТЕЛЬНОСТИ В СФЕРЕ УСЛУГ И ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ ЕЕ РАЗВИТИЯ

Специальность: 5312.01 – Отраслевая экономика

## АВТОРЕФЕРАТ

Диссертации на соискание научной степени
доктора философии по экономике

**БАКУ - 2014**